# Nə Olardı

**Almas İldırım**

© Azərbaycanın didərgin salınmış övladı şair Almas İldırım şerlərilə. 1990.

Nə olardı, kor doğsaydın, görməsəydim əzəldən,
Görməsəydim o doğduğun dərələri, dağları,
Almasaydım ilhamımı o talesiz gözəldən,
Gözlərimdə qalmasaydı göy Şüvəlan bağları.

Nə olardı, göz açarkən Xəzərimin dibində,
Mən özümə yosunlanmış, dilsiz bir daş bulaydım…
Çomağıyla sürü güdən bir çobanın önündə
Yar yolunda kəsiləcək bir qurbanlıq olaydım…

Mən nə bilim, bu qürbətin çəkilməyən nazı var,
Qəmlərimi yaza-yaza ömür keçdi, gün bitdi,
Mən dərdi yox edəm derkən, dərdlər məni əritdi…

Vurma könül, vurma, əlbət bu qışın bir yazı var,
Bu qara gün keçicidir, bir gün bitər, inləmə..
Baxçamızda sarı bülbül yenə ötər, inləmə…

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Səkinə İsgəndərova
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: aprel, 2004